TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_____________ E.M.Ağayev

"___" _______________ 2021-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**LEVOMEKOL®** xarici istifadə üçün məlhəm
LEVOMEKOL®

**Beynəlxalq patentləşdirilməmiş adı:** Dioxomethyltetrahydropyrimidine + Chloramphenicol

**Tərkibi**
*Təsiredici maddələr:* 1 q məlhəmin tərkibində 40 mq dioksometiltetrahidropirimidin (metilurasil), 7,5 mq xloramfenikol vardır.
*Köməkçi maddələr:* makroqol-1500, makroqol-400.

**Təsviri**
Ağ və ya sarımtıl çalarlı ağ rəngdə məlhəm.

**Farmakoterapevtik qrup**
Mikrobəleyhinə kombinəolunmuş vasitə
**ATX kodu:** D06C.

**Farmakoloji təsiri**
Yerli istifadə üçün kombinəolunmuş preparat iltihabəleyhinə (dehidratasiyaedici) və mikrobəleyhinə təsir göstərir, qrammüsbət və qrammənfi mikroorqanizmlərə (stafilokokk, piosianik və bağırsaq çöplərinə) qarşı aktivdir.
Bioloji membranları zədələmədən toxumalara asanlıqla dərindən nüfuz edir, regenerasiya proseslərini stimullaşdırır. İrin və nekrotik kütlələr olduqda antibakterial təsir davam edir.

**İstifadəsinə göstərişlər**
Yara prosesinin birinci fazasında olan irinli yaralar (eləcə də qarışıq mikrofloraya yoluxmuş yaralar).

**Əks göstərişlər**
Preparatın komponentlərinə qarşı yüksək həssaslıq; 1 yaşadək uşaqlar (yenidoğulmuşlarda xloramfenikolun biotransformasiyası böyüklərlə müqayisədə daha ləng baş verir).

**Digər dərman preparatları ilə qarşılıqlı təsiri**
Digər dərman vasitələri ilə qarşılıqlı əlaqə və ya uyuşmazlıq halları təsvir edilməmişdir

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamiləlik zamanı istifadə yalnız ana üçün faydanın döl üçün riskdən daha yüksək olduğu hallarda mümkündür.
Laktasiya dövründə ya preparatdan istifadəni, ya da əmizdirməni dayandırmaq lazımdır.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Təsir etmir.

**İstifadə qaydası və dozası**
Yerli. Preparatı steril tənzif salfetlərə yaxıb yaranı onlarla boş şəkildə doldururlar. Şprisin köməyi ilə kateter (drenaj borusu) vasitəsilə irinli boşluqlara daxil edilməsi mümkündür. Bu halda məlhəmi qabaqcadan 35-36°C-dək qızdırırlar. Sarımalar yaranın irinli-nekrotik kütlələrdən tam təmizlənməsinədək hər gün, gündə bir dəfə həyata keçirilir. Yara səthi böyük olduqda məlhəmin gündəlik dozası xloramfenikola çevirdikdə 3 q-dan çox olmamalıdır.
Müalicə müddəti xəstəliyin ağırlığından və gedişindən asılıdır.

**Əlavə təsirləri**
Allergik reaksiyalar (dəri səpgiləri).

**Doza həddinin aşılması**
Levomekol® məlhəmi preparatının dozasının aşılması halları haqqında məlumat verilməmişdir.

**Buraxılış forması**
Xarici istifadə üçün məlhəm 40 mq/q+7,5 mq/q.
30 q, 40 q və ya 50 q məlhəm, alüminium və ya polietilen laminat tublarda.
Hər tub içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Yararlılıq müddəti**
3 il 6 ay.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Saxlama şəraiti**
20°C-dən yüksək olmayan temperaturda və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı/İradları qəbul edən təşkilat**
"NİJFARM" SC, Rusiya.
603950, Nijniy Novqorod ş.,
Salqanskaya k., 7.
Tel.: (831) 278-80-88.
Faks (831) 430-72-28.
E-mail: med@stada.ru